

*Əkbər QOŞALI*

## ÜRƏK DAŞI ŞEİRLƏR

Atlar ayaqlandı Altay tərəfdən,
Atlar qanadlandı Günbatan səmtə;
Soyuqdan əsəndə yüyən tutan əl,
Buğ qalxanda atların, adamların
ağzından
və sırsıra tutanda kirpikləri-qaşları,
at özü qoparıb şah damarını
içirtdi qanını süvarilərə...
fışqıran o qaynar qanıydı elə -
işlədi iliyə, qarışdı qana,
azarlar-bezarlar qaçdı ordudan.
İgidlər atdan düşüb atlandı yenə;
yeni atlar ilə tərpəndi elat.
Sonradan uşaqlar atağız oldu,
bulaqlar Atbulaq,
yollar atyolu,
aşırımlar dəyişib Atyalı oldu...

Yorğun atlar yetişəndə mənzilə,
Günbatan torpağı çiçəkləyirdi.
Atımızın təriylə sulanırdı biçənək...
O ağır, o qıvraq, ahəngli yeriş
bərəkət qatırdı torpağa lay-lay...
Günbatanda batdılar
o igidlər, o atlar,
Gün kimi doğsaydılar..!

## ALDANIB AÇILIR QAR ÇİÇƏKLƏRİ

"Düşmənlər ayağa, dost başa baxar" -
belə bir söz qonub el yaddaşına.
Utandım, üzünə baxa bilmədim,
gözlərim yol çəkdi ayaqlarına...

Utandım deyirəm - bu, ilk görüşdü,
Düşmən də deyiləm, özün bilirsən.
Bir atalar sözü qüvvədən düşdü
bizim aramızda, - düzünü gəzsən.

Ağmı görməmişik ya yaraşıqmı..? -
yox, sənin ayağın başqadı, başqa...
bir bax, öz ürəyin sinəndə vurur,
ayrı bir ürək də ayaqlarında...

Sən yerə basırsan, ayaqdı, deyib,
məncə, bu ayaqlar uçmaq üçündü...
Belə ayaqların eşqinə qalxıb,
aldanıb açılır qar çiçəkləri...

* * *

Bu gün bitər, bitsin, neynək,
Sabah adlı umud olsun.
Yağış yağar, yer dirilər,
Göyündə ağ bulud olsun.

Öz könlündü öz işığın
Təmiz adın - yaraşığın...
Pirə dönsün damın-daşın,
Yaxşı qonum-qonşun olsun.

Şair, alqış söyləyirsən,
yerləyirsən, göyləyirsən.
Qələmini girləyirsən,
dildə sözün-sovun olsun...

* * *

Torpağa tapşırrıq ölən olanda,
Baxmarıq, ürəyi daşdı
yoxsa ki
ürəyi dağlıdı zalım oğlunun...
Və bir gün
üzə çıxar o ürək:
Ürəkdə dərd görünər,
dərddəsə ömür...
Bir də daş qoyarıq - adı: başdaşı...
Dünyanın o -



ən soyuq
daşına
isti sözlər yazarıq...
Yazıya ürək,
ürəyə dərd qoyarıq.
Beləcə,
dərd dolanar dünyada:
torpaq-torpaq,
daş-daş,
yazı-yazı,
ürək-ürək...
Deyirəm,
gedim torpaq dərdimi yazım,
ürəklər daş olmamış...

* * *

### *Dostum və qardaşım YOLÇU üçün*

Bir gün,
əlbət, bir gün
olanlar olmayacaq,
olmayanlar olacaq.

Nə qurşun atdıq bir kəsə
nə qurşun atdılar ölək;
Ömür deməm ömürə,
yol yoxsa,
cavan ölümə..

Onsuz da
olanlar olmayacaq,
olmayanlar olacaq...

Nə qurşun atdılar ölək,
nə qurşun atdıq bir kəsə;
Ömür dedim ölümə,
özüm dedim özümə:
bütün ömürlər
ölümə aparır...

Baxma, hər ölünü bir qoşun aparır,
kim dünyadan nə götürür?
Qoy desinlər, bir şair
dünyadan qurşun aparır...

## YATAQXANADA YAŞAYANLAR...

Bütün yataqxanalarda yaşayanlar
köçəcək

heç olmasa qəbirə.
Bütün köçənlərə çadır qurulur.
heç olmasa qara çadır.
Bütün ölənləri tapşırırlar,
heç olmasa torpağa.

Bütün torpaqdakılar gedir,
heç olmasa cəhənnəmə.
Bütün cəhənnəmdəkilər...
az qala
yenə "heç olmasa" deyəcəkdim..
Heç olmasa,
bu şeiri bitirim...

* * *

Ən yeni mahnılar da,
ən köhnə havalar da
sümüyünə düşür bə,
işləyir iliyinə,
Nə yaman oynayırsan,
ağ geyən,
ay, ağ geyən..?

Ağ geyən,
heç bilmirəm,
qızsanmı, gəlinsənmi? -
Gəlinsənsə bildirmə,
qızsansa heç bildirmə;
Məni sevərsən, dindirmə,
sevməzsən heç dindirmə..!
Bir sual qal, ağ geyən,
elə ağ qal, dar geyən...
Qoy, bu kirlənən dünya,
başımıza dar dünya,
sən boydasa ağ qalsın...

* * *

Öyrətmədin ürəyini sən mənə,
mən gözümü kürəyinə öyrətdim.
Ha gec gəldin, ha tez getdin,
hər vədə,
mən özümü getməyinə öyrətdim.

Sən gəlsən də ən böyük, gen yol ilə,
elə bil ki cığır idi gəldiyin...
Əllər ələ, tellər telə dəysə də,
zalım qızı, nağıl idi gəldiyin...

Danışmağa bir dünya söz varıydı,
görüşüncə qıfıllıydı dilimiz...



Ürəyimiz alışırdı, yanırdı,
bilməm niyə buz kəsirdi əlimiz..?

Ayrılandan on dəqiqə keçməmiş,
"mesaj" gözlər,
telefona baxardım...
Bir işıqlı söz oxunca, bay aman,
yeriməzdim, dəli kimi qaçardım...

-Bu yaşımda uşaqlığım tutmasın,
sən də orda "mesaj" gözlər dəliydin...
Nə gizlədim, dünyada ən əziz söz,
sən dediyin, sən yazdığın "Dəli"ydi...

Başqa işə taqət qalmır adamda,
əllər işə, ayaq yola yatmayır...
Görüşüncə göyə uçur vaxt sanki,
ayrılınca, darıxmağa yarayır...

Öyrətmədin ürəyini sən mənə,
mən gözümü kürəyinə öyrətdim.
Ha gec gəldin, ha tez getdin,
özümü
görüşlərin kövrəyinə öyrətdim...

* * *

Yol yaranıb de, ilk öncə ya yolçu,
ən sonuncu yolçu kimdi görəsən?
Mən yollarda ölər olsam, ya yolçu,
"yol sağ olsun, olan işdi" deyərsən.

Ölər olsam... tabutumu qaldırar
qardaşım Zülfüqar, əzizim Yolçu.
Ləngidərlər, "bəlkə..." deyə, nə çıxar?
ləngitmə ölünü, mən ölüm, Yolçu.

Deyir, yolda yoxuş yoxsa, yol deyil,
gedən ruhdu, ayaq deyil, qol deyil.
Mən yol gözləyirəm, yol məni deyir,
ürəyim yoldadı, ürəyim yolçu...

***

Otuz iki diş qoruyur bir dili,
diş yeyib, dil deyib alır payını.
Gah dişlərə düşdüm, düşdüm dilə gah,
yaşım ötdü dişlərimin sayını.

...Ucunda söz varsa, yenmir dilimi,
ət yeyir, su içir, yemir dilimi;

Haramdısa yemir bircə dilimi,
itirmir, sağolsun, haqqın sanını.

Gözlərim nə çəkir, görmür bir ömür,
ürəyim nə deyir, bölmür bir ömür.
Gətirmir o, nolsun, nolsun ki, görmür,
diş bilir bu canın bütün halını.

* * *

Bu dünyada bir gözəl var,
topuqları öpüləsi.
Saçlarının yerə düşən
qopuqları öpüləsi.

bu dünyada bir gözəl var,
dizi, dizi qiyamətdi.
aşkarda heyran olsam da,
o ən gizli iqamətdi...

bu dünyada bir gözəl var,
dilimin ucunda adı...
o xəyallar qızını mən,
hər gün sevdim, hər gün aldım...

## UZUN SÖZÜN QISASI...

Yollar qurtarmayır,
yollar dəyişir...

* * *

Yenə susqundumu dağlar dənizlə..?

* * *

Havalıyam, havam çatmır...

* * *

Günəş səni tanır,
Buludlar məni...

* * *

Yazdığımı pozaram,
pozduğumu yazmaram...

* * *

Gəlmək var, getmək var, gəlməmək - nədi?
Cənnət, cəhənnəm var, dözməmək - nədi?
Sən heç bilirsənmi gözləmək nədi?
İki söz bilirsən: gözlə, gələcəm...